

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 18 (23.180)

25 yanvar 2019-cu il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Yanvarın 24-də Prezident İlham Əliyev Bakının Sabunçu rayonunun Pirşağı qəsəbəsində Kənd Təsərrüfatı Nazirliyinin əsaslı şəkildə yenidən qurulan Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun və "Kartof və tərəvəz toxumları istehsalı" kompleksinin açılışında iştirak edib.

Dövlətimizin başçısına məlumat verilərək bildirilib ki, ərazidə inzibati-laboratoriya binası, yeməkxana, toxum saxlanma anbarı, toxum emalı məntəqəsi, toxum təmizləmə sexi, istixanalar kompleksi, toxum satış mərkəzi yaradılıb. Burada, ümumilikdə, 16 hektar sahədə tikinti, abadlıq və yaşıllaşdırma işləri görülüb.

Prezident İlham Əliyev institutun binasının rəmzi açılışını bildirən lenti kəsib.

Dövlətimizin başçısına Elektron kənd təsərrüfatı layihəsi barədə məlumat verilib.

Prezident İlham Əliyevə Aqrar İnkişaf Könüllüləri layihəsinin məqsədi barədə də məlumat verilib.

Sonra dövlətimizin başçısı Aqrar İnkişaf Könüllülərinin bir qrupu ilə görüşüb.

Prezident İlham Əliyev görüşdə çıxış edib.

Sonda xatirə şəkli çəkdirilib.

## Şərur Rayon Uşaq Xəstəxanası istifadəyə verilmişdir





Muxtar respublikada müasir səhiyyə infrastrukturunun yaradılması insan amilinə verilən dəyərin ifadəsidir. Yaşayış məntəqələrində yeni səhiyyə müəssisələrinin tikilməsi sakinlərin hərtərəfli tibbi xidmətlə təmin olunmasına imkan verir. Gələcəyimiz olan uşaqların sağlam böyüməsi isə həyata keçirilən səhiyyə islahatlarının əsasını təşkil edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 oktyabr tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın qəbul olunması və Şərur Rayon Uşaq Xəstəxanasının yaradılması bu sahədə görülən işlərin davamıdır.

Yanvarın 24-də Şərur Rayon Uşaq Xəstəxanası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Ali Məclisin Sədri Şərur Rayon Uşaq Xəstəxanasının istifadəyə verilməsi münasibətilə kollektivi və sakinləri təbrik edərək demişdir: Bu gün ölkəmizdə səhiyyə sahəsində mühüm tədbirlər həyata keçirilir. Görülən işlərin nəticəsidir ki, Azərbaycanda inkişaf etmiş ölkələrin səhiyyə sisteminə uyğun səhiyyə sistemi yaradılıb. Ümummilli liderimiz Heydər Əliyev tövsiyə edirdi ki, ***"Sağlam nəsil böyüdülməsi dövrümüzün ən başlıca sosial vəzifəsi kimi qarşımızda durur".*** Bu gün Azərbaycan müstəqil dövlətdir. Müstəqil ölkədə isə insanların sağlamlığının qorunması qarşıda duran ən mühüm vəzifələrdəndir. Ona görə də ölkəmizdə bu sahədə lazımi tədbirlər həyata keçirilir, dövlət proqramları qəbul olunur, yeni xəstəxanalar tikilir, müasir tibbi avadanlıqlar alınır və ixtisaslı həkimlər formalaşdırılır. Səhiyyənin inkişafı ilə bağlı qəbul olunmuş dövlət proqramlarından biri də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 oktyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"dır. Dövlət proqramına uyğun olaraq bu gün Şərur Rayon Uşaq Xəstəxanası istifadəyə verilir.

Ali Məclisin Sədri demişdir: Bu gün Şərur rayonunda 116 mindən artıq əhaliyə bir mərkəzi xəstəxana, bir kənd sahə xəstəxanası, bir Gigiyena və Epidemiologiya Mərkəzi, 27 ambulatoriya və 32 feldşer-mama məntəqəsi tərəfindən səhiyyə xidməti göstərilir. Bundan başqa, rayon əhalisinin 41 mindən çoxu 1-17 yaş arasında olan uşaq və gənclərdir. Onlara lazımi tibbi xidmətin göstərilməsi və uşaqların icbari dispanserizasiyasının həyata keçirilməsi üçün Şərur rayonunda uşaq xəstəxanasının yaradılmasına ehtiyac yaranmışdı. Bu gün lazımi tibbi avadanlıqlarla təmin olunmuş yeni xəstəxana istifadəyə verilir. Xəstəxanada 25-i həkim olmaqla, 85 tibb işçisi uşaqların və gənclərin sağlamlığı keşiyində duracaq, onlara həm stasionar, həm də poliklinika xidməti göstərəcək. Kollektivin qarşısında duran əsas vəzifə isə Dövlət Proqramında qarşıya qoyulan vəzifələri həyata keçirmək, eyni zamanda səhiyyə protokollarına əməl etməkdən ibarətdir. Yaradılan şərait, quraşdırılan müasir avadanlıqlar və həkimlərin kurslara göndərilməsi qarşıya qoyulmuş vəzifələrin uğurla yerinə yetirilməsinə imkan verəcəkdir.



Ali Məclisin Sədri yaradılmış şəraitdən lazımi səviyyədə istifadə olunacağına əminliyini bildirmiş, kollektivə işlərində uğurlar arzulamışdır.

Şərur Rayon Uşaq Xəstəxanasının baş həkimi Günay Quliyeva çıxış edərək demişdir ki, muxtar respublikada uşaq və gənclərin sağlam böyüməsi sahəsində ardıcıl tədbirlər görülür. Müasir səhiyyə müəssisələrinin istifadəyə verilməsi, xüsusilə "Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın təsdiq olunması bu baxımdan mühüm əhəmiyyətə malikdir. Müasir tələblər səviyyəsində qurulmuş xəstəxanada uşaqların dünya səhiyyə sisteminin tələblərinə uyğun müayinə və müalicəsi üçün şərait yaradılmışdır. Şərur rayonunda uşaq əhalisi tam keyfiyyətli tibbi xidmətlə əhatə olunacaqdır. Bu, muxtar respublikada uşaqların sağlamlığının qorunmasına göstərilən qayğının daha bir ifadəsidir. Günay Quliyeva Şərur Rayon Uşaq Xəstəxanasının istifadəyə verilməsinə və burada yaradılan yüksək şəraitə görə kollektiv adından minnətdarlıq etmiş, Ali Məclis Sədrinin ***"Uşaqların sağlam böyüməsi ölkəmizin sağlam gələcəyinə xidmət edir"*** fikrini rəhbər tutaraq Şərur rayonunda uşaq əhalisinin sağlamlığının qorunmasında məsuliyyətlərini artıracaqlarına və etimadı doğruldacaqlarına söz vermişdir.

Sonra Ali Məclisin Sədri xəstəxanada yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, xəstəxanada stasionar şöbə, poliklinika bölməsi və yoluxucu xəstəliklər üçün izolyator fəaliyyət göstərəcək. Stasionar şöbə 3 palata, reanimasiya və intensiv terapiya, uşaqlar üçün oyun və işçilər üçün otaqlardan ibarətdir. Poliklinika bölməsi birinci və ikinci mərtəbələrdə yerləşir. Birinci mərtəbədə qeydiyyat, dispanserizasiya, təcili tibbi yardım və manipulyasiya, stomatoloq, stomatoloq-ortodont, fizioterapiya, laboratoriya, ultrasəslə müayinə, kardiorevmotoloq, nevropatoloq, cərrah-travmatoloq, qəbul üzrə həkim, sahə pediatrları və sahə tibb bacıları, peyvənd və BÇJ kabinələri, yeməkxana, mətbəx, camaşırxana, texniki işçilər üçün otaqlar vardır. Yoluxucu xəstəliklər üçün izolyator da birinci mərtəbədə yerləşir və girişi ayrıdır.

Xəstəxanada nümunəvi tibbi informasiya sistemi yaradılmış, 12 kompüter qoyulmuşdur. Bu da xəstələrin qeydiyyatının elektron formada aparılmasına, eləcə də onlar haqqında məlumatların Səhiyyə Nazirliyindən, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyindən və icbari tibbi sığortanın tətbiq olunduğu digər xəstəxanalardan birbaşa izlənilməsinə imkan verəcəkdir.

İkinci mərtəbədə oftalmoloq, LOR, endokrinoloq-allerqoloq, derma-toveneroloq, ginekoloq, ftiziatr-infeksionist, psixoloq-loqoped, baş həkim, mühasibatlıq və metodist üçün otaqlar yerləşir. Burada mərkəzi oksigen sistemi yaradılaraq reanimasiya və intensiv terapiya, palata, təcili tibbi yardım və manipulyasiya otaqlarına verilmişdir. Xəstəxanada stasionar ultrasəslə müayinə cihazı, 2 stomatoloji qurğu, elektrokardioqrafiya, elektroensefaloqrafiya, hematoloji, biokimyəvi, EÇS təyini, qlükometr, avtoanalizatorlar, mikroskop, sentrifuqa, termostat, reanimasiya üçün kardiomonitorlar, elektrosorucu, ambu süni tənəffüs aləti, oksigen konsentratoru, pulsoksimetr, fizioterapiya kabinəsi üçün elektro və ultrasəs müalicə, ultrayüksəktezlikli cərəyanla müalicə, darsonval, inqalyator cihazları, solyuks, soyuq və isti kvars lampaları, parafinqızdırma qazanı quraşdırılmışdır. Həmçinin xəstəxananın oftalmoloji kabinəsi

Ardı 2-ci səhifədə

üçün şirim lampası, oftalmotoloji proyektor, dioptrimetr, oftalmoskop, retinoskop, görmə itiliyinin korreksiyası üçün linza dəsti, keratorefraktometr, sterilizasiya üçün avtoklav, quru hava sterilizatorları, bakteriosid lampalar, paketləmə cihazı, LOR əməliyyat dəsti qoyulmuş, eləcə də yeni təcili tibbi yardım avtomobili verilmişdir.

Həkim Nüsrət Həsənov minnətdarlıq edərək demişdir: *"Mənim ayrıca bir fəaliyyət proqramım olmayacaqdır. Fəaliyyətimi görkəmli dövlət xadimi Heydər Əliyevin dövlətçilik proqramının Naxçıvanda dönmədən həyata keçirilməsinə həsr edəcəyəm"*, – deyən Ali Məclis Sədrinin rəhbərliyi ilə Naxçıvanda ulu öndərin ideyaları reallığa çevrilmişdir. Bütün sahələrlə yanaşı, səhiyyənin də hərtərəfli inkişafı təmin edilmişdir. Xüsusilə gənc nəslin sağlam böyüdülməsi sahəsində görülən işlər, müasir xəstəxanaların istifadəyə verilməsi gələcəyimizə göstərilən qayğıdır.

Ali Məclisin Sədrinə məlumat verilmişdir ki, muxtar respublikada səhiyyə maarifi işi və səhiyyə protokolunun düzgün aparılması sahəsində müvafiq tədbirlər görülür. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən 500-dən artıq səhiyyə protokolunu əhatə edən 19 adda kitab tərcümə olunmuşdur.

Ali Məclisin Sədri rayonda uşaq və gənclərin sağlamlığının daim diqqətdə saxlanılmasının vacibliyini vurğulamış, səhiyyə protokollarının çap olunaraq bütün tibb müəssisələrinə paylanılması və düzgün istifadəsi, eləcə də İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən qeyd olunan məsələ ilə bağlı maarifləndirici kursların keçirilməsi barədə tapşırıqlar vermişdir.

Xəstəxananın həyətində də abadlıq işləri aparılmış, mərkəzi istilik sistemi quraşdırılmışdır.

## Şərur rayonunda icbari tibbi sığortanın tətbiqinə başlanılmışdır

Yanvarın 24-də Şərur rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı müşavirə keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir ki, muxtar respublikada xəstəxanaların, həkim ambulatoriyalarının, feldşer-mama məntəqələrinin yenidən qurulması, müasir avadanlıqlarla təmin olunması, eləcə də ixtisaslı həkim hazırlığı tibbi xidmətin səviyyəsini yüksəldib. Hazırda Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində həkim, Tibb Kollecində isə orta tibb işçiləri hazırlanır. Tibb Kollecinin binası yenidən qurulmuşdur. Tibb fakültəsinin yenidən qurulması isə davam etdirilir. Səhiyyənin inkişafı sahəsində görülən işlərin nəticəsidir ki, muxtar respublikadan başqa yerlərə müalicə üçün gedən xəstələrin sayında kəskin azalma var. İnsanlar muxtar respublikanın səhiyyə müəssisələrinə və həkimlərinə etibar edirlər. Bütün bunlar isə imkan verir ki, səhiyyə sahəsində lazımi işlər həyata keçirilsin. İcbari tibbi sığortanın tətbiqi bu baxımdan mühüm əhəmiyyət daşıyır. Artıq bir ilə yaxındır, muxtar respublikada bu işə başlanılıb. Sədərək rayonunda icbari tibbi sığorta tam tətbiq olunur.



Ali Məclisin Sədri demişdir: Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə 2020-ci ildə ölkəmizdə icbari tibbi sığortanın tam tətbiqinə başlanılacaqdır. Ona görə də muxtar respublikada bu sahədə tədbirlər həyata keçirilməli, digər rayonlarında da icbari tibbi sığorta tətbiq olunmalıdır. Hazırda İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin baza zərfində 1525 tibbi xidmət vardır. Həmin tibbi xidmətlərin 515-i Sədərək Rayon Mərkəzi Xəstəxanasında, 718-i Şərur Rayon Mərkəzi Xəstəxanasında, digərləri isə icbari tibbi sığortanın tətbiq olunduğu muxtar respublika xəstəxanalarında həyata keçirilir. Şərur rayonunda həyata keçirilən tədbirlər, uşaq xəstəxanasının yaradılması, həkim ambulatoriyalarının yenidən qurulması və lazımi avadanlıqlarla təmin olunması, eləcə də muxtar respublikada vahid elektron idarəetmə sisteminin qurulması icbari tibbi sığortanın tətbiqinə imkan verəcəkdir.

Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov məlumat verərək demişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2017-ci il mayın 3-də "Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər haqqında" Fərman imzalamışdır. Fərmana uyğun olaraq Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqinə başlanılmışdır. Ötən il Sədərək Rayon Mərkəzi Xəstəxanası tərəfindən 7 min 607 xəstəyə tibbi xidmət göstərilmişdir. Şərur rayonunda da bu sahədə tədbirlər görülmüş, mərkəzi xəstəxananın təcili yardım şöbəsi lazımi avadanlıqlarla təmin edilmiş, tibbi yardım briqadasının sayı artırılmışdır. Xəstəxananın laboratoriya şöbəsi yenidən qurulmuş, tibbi avadanlıq və cihazlarla təmin olunmuşdur. Yeni narkoz və süni tənəffüs aparatı alınmış, yenidoğulmuşlara göstərilən tibbi xidmətin yaxşılaşdırılması üçün transport küvez alınaraq quraşdırılmışdır. Şərur Rayon Mərkəzi Xəstəxanasında və Uşaq Xəstəxanasında nümunəvi informasiya sistemi istifadəyə verilmişdir.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Samiq Sadıxov demişdir ki, muxtar respublikada icbari tibbi sığortanın tətbiqində iştirak edəcək xəstəxanaların siyahısı hazırlanmış və həmin müəssisələrdə agentliyin qeydiyyat məntəqələri yaradılmışdır. Şərur rayonunda da icbari tibbi sığortanın tətbiqi üçün hərtərəfli şərait yaradılmışdır. Agentlik tərəfindən ilkin tədbirlərin icrasına başlanılmış, icbari tibbi sığortanın Şərur rayonunda tətbiq edilməsi üçün rayon əhalisi üzrə məlumatlar toplanılmışdır. Toplanılan məlumatlar əsasında icbari tibbi sığortaya cəlb olunacaq əhali, tibb müəssisələri və tibb işçilərinə dair mərkəzləşdirilmiş məlumat bazaları, səhiyyə informasiya idarəetmə sistemi və digər zəruri proqram təminatları, eləcə də reyestrlər yaradılmışdır.

Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini – maliyyə naziri Səbuhi Məmmədov və Naxçıvan Muxtar Respublikasının Baş naziri Əlövsət Baxşıyev Şərur rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı görüləcək işlər barədə aidiyyəti üzrə məlumat vermişlər.

Müşavirədə Şərur rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı qərar qəbul olunmuşdur.

Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə, Maliyyə və Səhiyyə nazirliklərinə, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə Şərur rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı birgə müzakirələrin aparılması və təkliflərin hazırlanması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Yeni Azərbaycan Partiyasının şəhər və rayon təşkilatlarının şura iclasları keçirilib



***2018-ci ildə görülən işlər və 2019-cu ildə qarşıda duran vəzifələrə həsr olunan Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Şurasının iclasını təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Elman Cəfərli açaraq məruzə edib.***

Bildirilib ki, ölkəmizdə müstəqil dövlətçiliyin inkişafı bilavasitə Yeni Azərbaycan Partiyasının fəaliyyəti ilə bağlıdır. 1992-ci ildə Naxçıvanda ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan partiya dahi liderin siyasi və milli dövlətçilik konsepsiyasını dönmədən reallaşdırıb, nəticədə, ölkəmiz və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası sürətli inkişaf yolu keçib. Naxçıvan şəhəri 2018-ci ili İslam Mədəniyyətinin Paytaxtı və Azərbaycanın Gənclər Paytaxtı kimi öz tarixinə yazıb, ən müasir Avropa şəhərləri ilə müqayisə olunacaq məkana çevrilib. Ötən ilin ən mühüm siyasi hadisəsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin muxtar respublikamıza səfəri olub, səfər zamanı Naxçıvan şəhərində də bir sıra sosial obyektlər istifadəyə verilib, bu əlamətdar hadisə ictimaiyyətin yaddaşında dərin təəssüratlar buraxıb.

Qeyd edilib ki, partiyanın Naxçıvan Şəhər Təşkilatı öz fəaliyyətini Yeni Azərbaycan Partiyasının qurultayları, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının 2014-cü ilin noyabrında keçirilən V konfransı və təşkilatın Siyasi Şurasının 2017-ci il martın 16-da keçirilən iclasında qarşıya qoyulan vəzifələrin ardıcıl icrası istiqamətində quraraq cəmiyyətin ümumi inkişaf tempinə adekvat fəaliyyət göstərib. Bu baxımdan təşkilatın 2018-ci il üçün iş planında nəzərdə tutulan tədbirlərin vaxtlı-vaxtında və yüksək səviyyədə həyata keçirilməsi, ilk təşkilatlarla işin gücləndirilməsi, siyasi-ideoloji işdə və partiyaya yeni üzvlərin cəlb edilməsi məsələsində keyfiyyət amili prioritet təşkil edib.

Vurğulanıb ki, ötən müddətdə təşkilatda, ümumilikdə, 14 kütləvi siyasi tədbir keçirilib, partiyaya üzv qəbulu ilə bağlı müsahibələr aparılıb. Həmçinin 2018-ci ildə partiyaya üzv qəbul olmaq üçün müraciət edən 1084 nəfərdən 1020-si Yeni Azərbaycan Partiyası sıralarına qəbul olunub. Nəticədə, 2019-cu il yanvarın 1-nə Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı üzvlərinin sayı 17 min 935 nəfərə çatıb.

İclasda Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı İdarə Heyətinin üzvü, Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov çıxış edərək 2018-ci ildə Naxçıvan şəhərində quruculuq və abadlıq işlərinin sürətlə davam etdirildiyini, paytaxtın bir sıra mühüm beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etdiyini vurğulayıb. Çıxışda Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafının başlıca göstəriciləri diqqətə çatdırılıb, şəhərdə aparılan quruculuq tədbirlərində Yeni Azərbaycan Partiyası üzvlərinin fəallıq göstərdiyi qeyd olunub.

Məruzələr ətrafında Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının Şura üzvləri, Yeni Azərbaycan Partiyası Universitet Şəhərciyi ərazi ilk təşkilatının sədri Asəf Əliyev və Naxçıvan Müəllimlər İnstitutu ərazi ilk təşkilatının sədri Çapay Quliyev çıxış ediblər.

* * *

Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatında keçirilən şura iclasında təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qadir İbrahimov məruzə ilə çıxış edib. Bildirib ki, rayon təşkilatı ötən il fəaliyyətini təkmilləşdirməyə, müasir tələblər səviyyəsində qurmağa çalışıb. Son illər muxtar respublika rəhbərinin diqqət və qayğısı nəticəsində yeni tikilib istifadəyə verilmiş kənd mərkəzlərində ərazi ilk təşkilatları üçün iş otaqlarının ayrılması onların nüfuzunu artırıb, fəaliyyətini canlandırıb.

Diqqətə çatdırılıb ki, hazırda rayon təşkilatının 5608 üzvü var. 55 ərazi ilk təşkilatında partiya üzvlərinin 2669-u qadın, 1699-u isə gəncdir. Ötən il 57-si kənd, 42-si isə Culfa şəhər ərazi ilk təşkilatları olmaqla, ümumilikdə, 99 nəfər partiya sıralarına qəbul olunub. Məruzəçi deyib ki, rayon təşkilatı Gənclər Birliyi 2018-ci ildə gənclər arasında ideya-siyasi işləri gücləndirib. Gənclərdə vətənpərvərlik hissinin gücləndirilməsi sahəsində



müxtəlif tədbirlər, yarışlar, görüşlər keçirilib. Hesabat dövründə Naxçıvan şəhərinin ölkəmizin Gənclər Paytaxtı seçilməsi ilə bağlı Culfa Rayon Təşkilatı Gənclər Birliyi tərəfindən müxtəlif mədəni-kütləvi tədbirlər təşkil edilib, mart ayında "Gənclər bağı" salınıb. Gənclər Birliyi ilə rayon Gənclər və İdman İdarəsi birgə tədbirlər hazırlayıb həyata keçiriblər.

Təşkilatın Qadınlar Şurasının fəaliyyətindən də söz açan Qadir İbrahimov diqqətə çatdırıb ki, 2018-ci ildə yol verilən bəzi nöqsan və çatışmazlıqlar rayon təşkilatının idarə heyətinin iclasında geniş müzakirə və təhlil olunub, onların aradan qaldırılması üçün müvafiq qərarlar qəbul edilib.

Bildirilib ki, muxtar respublikamızın son illər davamlı və hərtərəfli inkişaf etməsi Culfa rayonunun timsalında da özünü göstərib. Belə ki, həyata keçirilmiş irimiqyaslı abadlıq, yaşıllaşdırma və quruculuq tədbirlərində, iməciliklərdə, aqrar islahatların həyata keçirilməsində partiya üzvlərinin fəallığı yüksəlib, rayonda yaşayış məntəqələrinin siması tamamilə dəyişib, abad kəndlərin sayı artıb, insanların həyat səviyyəsi yaxşılaşdırılıb.

Şura iclasında Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatı Gənclər Birliyinin sədri Təbriz Hüseynzadə, Qadınlar Şurasının sədri Xanım Tağıyeva, Yaycı kənd ərazi ilk təşkilatının sədri Vaqif Abdullayev, Bənəniyar kənd ərazi ilk təşkilatının sədri Duvangir Əhmədov çıxış ediblər.

Sonra bir qrup gənc partiya sıralarına qəbul olunub.

**Xəbərlər şöbəsi**

## Test imtahanları mərhələsi başa çatıb

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın Test mərkəzində dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün 5 noyabr 2018-ci il tarixdə elan olunmuş müsabiqənin test imtahanları keçirilib.

Müsabiqəyə çıxarılan 305 vakant vəzifənin tutulması üçün 583 namizəd tərəfindən sənəd təqdim olunub, onlardan 570-i test imtahanında iştirak edib. Test imtahanlarında 257 nəfər keçid balını toplayaraq müsahibə mərhələsində iştirak etmək hüququ qazanıb.

Namizədlərin daha çox sənəd təqdim etdiyi dövlət orqanları sırasında Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (76 nəfər), Turizm Departamenti (69 nəfər), Mədəniyyət Nazirliyi (58 nəfər), Dövlət Statistika Komitəsi (57 nəfər), Təhsil Nazirliyi (53 nəfər) və Dövlət Sosial Müdafiə Fondu (46 nəfər) üstünlük təşkil edib.

Obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə imtahanın videoçəkilişi aparılıb. İmtahan bitdikdən dərhal sonra namizədlərə nəticələrə dair arayış təqdim edilib. Nəticələr komissiyanın rəsmi internet portalında (*www.dqmk.nmr.az*) yerləşdirilib.

Test imtahanında müvəffəqiyyət qazanmış namizədlər imtahanın nəticələri elan edildiyi gündən etibarən 10 iş günü müddətində komissiyanın internet portalı vasitəsilə qeydiyyatdan keçməlidirlər. Qanunvericiliyə əsasən müsahibə mərhələsi sənəd qəbulu başa çatdıqdan sonra 30 gün ərzində olacaq.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

*Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının bütün sahələrdə tətbiqi cəmiyyətin hərtərəfli inkişafı üçün yeni imkanlar açır. Bununla belə mobil rabitə hamin texnologiyalardan istifadədə öncül yerini qoruyub saxlayır. "Naxtel" Məhdud Məsuliyyətli Cəmiyyəti isə muxtar respublikamızda yeni texnologiyaların tətbiqi və əhaliyə keyfiyyətli rabitə xidmətlərinin göstərilməsi baxımından İKT-nin uğuru hesab oluna bilər. Bəs bu gün mobil rabitə xidmətinin fəaliyyətində hansı istiqamətlər prioritet olaraq götürülüb? Elə bu və ya digər suallarımızı cəmiyyətin Marketinq şöbəsinin müdiri Elxan İbrahimov cavablandırır.*

## Naxtel 4G 2019-cu ildə xidmət kateqoriyalarını daha da genişləndirəcək




***– Naxtel artıq bir neçə ildir ki, muxtar respublikada fəaliyyətə başlayıb. Bilmək istərdik ki, bu operator Naxçıvanın mobil operator bazarında hansı yeri tutur?***

– Naxtel həm Azərbaycanın, həm də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının mobil telekommunikasiya bazarının yeni bir iştirakçısı kimi 2 ildən artıqdır ki, fəaliyyət göstərməkdədir. Naxtel, həmçinin Naxçıvan Muxtar Respublikasında 4-cü nəsil mobil telekommunikasiya – LTE şəbəkəsini təmin edən ilk mobil operatordur və ötən müddət ərzində ciddi nailiyyətlər əldə etməklə bazarda yeni iştirakçı kimi aparıcı mövqeyə sahiblənib. 2018-ci il ərzində Naxtel abunəçi sayını 2 dəfə artırıb və inkişaf dinamikası yüksələn istiqamətdə davam etdirilməkdədir.

***– Bu mobil operatorun hazırda nə qədər abunəçisi vardır?***

– Naxtelin qeydiyyatdan keçən abunəçi sayı artıq 63 mini ötüb. Bu da onun mobil operator istifadəçiləri arasında nüfuzunun artmasının bir göstəricisidir.

***– Abunəçilərlə əlaqələr necə qurulub?***

– Naxtel 4G mobil operatoru vətəndaşlara xidmət göstərilməsi zamanı başlıca olaraq peşəkarlıq, şəffaflıq, səriştəlilik, müştəri məmnuniyyəti prinsiplərini daim rəhbər tutur. Həmçinin müxtəlif xidmət kanalları yaradılması yolu ilə müştəri məmnuniyyətinin artırılması da xidmətlərin həyata keçirilməsində prioritet istiqamətlərdən birini təşkil edir. Abunəçi əlaqələri Naxtel satış və xidmət mərkəzləri, 24 saat fəaliyyət göstərən "299" çağrı mərkəzi və Naxtelin internet resursları vasitəsilə həyata keçirilir. İnternet resurslarını təşkil edən Naxtelin rəsmi *www.naxtel.az* internet saytı, şəxsi kabinet və sosial şəbəkə hesabları, həmçinin Naxtelin Plus mobil əlavəsi vasitəsilə internet üzərindən abunəçilər üçün müştəri xidmətləri fəaliyyəti təmin edilir. Bunlarla paralel olaraq Naxtel tərəfindən muxtar respublikamızın müxtəlif bölgələrində və Naxçıvan şəhərində səyyar satışlar və xidmətlər həyata keçirilir.

***– Naxtelin hazırda neçə baza stansiyası var?***

– Muxtar respublikamızın sakinlərinə bu gün Naxtelin 98 baza stansiyası vasitəsilə mobil telekommunikasiya şəbəkəsi təqdim edilir. Baza stansiyalarının fəaliyyətində əsas meyar isə muxtar respublikamızın bütün yaşayış məntəqələrində mobil şəbəkə təminatının həyata keçirilməsidir və Naxtel şəbəkəsinin əhatə dairəsi muxtar respublikamızın yaşayış məntəqələrinin 98 faizini əhatə edir. Hazırda muxtar respublikanın bütün yaşayış məntəqələrinin mobil telekommunikasiya şəbəkəsi təminatının realizə edilməsi üçün tədbirlər davam etdirilməkdədir.

***– Bəs hazırda mobil operator abunəçilərinə hansı sərfəli internet paketləri təqdim olunur?***

– İnternet paketləri digər mobil operatorlarla müqayisədə daha əlverişli qiymətlərlə və istifadə həcmindən asılı olmaqla 1, 7 və 30 gün istifadə müddəti əsasında abunəçilərə təqdim edilir. 50 Mb-dan 450 Gb-dək həcmdə müxtəlif internet paketlərindən istifadə üçün abunəçilərə seçim imkanı yaradılıb. Həmçinin Avantaj paketləri ilə güzəştli danışıq, SMS və internet balansı da təqdim edilir. Yenilənmiş "Tələbə" tarifində abunəçilərə internet balansı hədiyyə olunur.

***– Naxtel ödəmələri haqqında da oxucularımıza məlumat verməniz istərdik.***

– Naxtel ödəmələri üçün müxtəlif ödəniş kanalları mövcuddur. Abunəçilər Naxtel ödəmə kartları, şəxsi kabinet, *hesab.az, goldenpay.az, portmanat.az, e-pul.az* internet saytları, Naxtel Plus mobil əlavəsi və "Naxçıvanbank" ASC-nin ödəniş terminalları vasitəsilə müvafiq ödəmələri həyata keçirə bilərlər.

***– Bəs operatorun rominq xidmətləri haqqında nə deyə bilərsiniz?***

– Beynəlxalq rominq xidməti artıq 7 ölkədə aktivləşdirilib və digər ölkələrdə də aktivləşdirilməsi üçün işlər test və yoxlama fazasında davam etdirilir.

***– Elxan müəllim, 2019-cu ildə Naxteldən hansı yenilikləri gözləyə bilərik?***

– Cari ildə Naxtel 4G öz inkişaf dinamikasına uyğun olaraq yeni kampaniya, təklif, tarif və paketlərlə abunəçilər üçün xidmət kateqoriyalarını genişləndirəcəkdir. Beynəlxalq rominq xidmətinin genişləndirilməsi və heç bir mobil telekommunikasiya şəbəkəsi olmayan ucqar yaşayış məntəqələrinin mobil şəbəkə təminatı da başlıca hədəflər arasındadır. 2019-cu ildə korporativ sosial məsuliyyət prinsipindən irəli gələrək Naxtelin sosial layihələrdə aktiv iştirakı da nəzərdə tutulan yeniliklərdən biridir.

*– Müsahibə üçün sağ olun. Sizə bundan sonrakı fəaliyyətinizdə də uğurlar, bol müştəri məmnuniyyəti arzu edirik.*

**Gülcamal TAHİROVA**

---

*Yeni nəşrlər*

## "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" kitabı nəşr edilib




Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısının nəticəsidir ki, bu gün doğma diyarımızda alim və tədqiqatçılar, eləcə də yaradıcı insanlar üçün hərtərəfli fəaliyyət şəraiti yaradılıb, müasir avadanlıqlarla təchiz olunan nəşriyyat və mətbəələr istifadəyə verilib. Həmçinin diyarımızın qədim tarixi, zəngin mədəni irsi, görkəmli şəxsiyyətləri və müasir sosial-iqtisadi inkişafı barədə yeni kitabların nəşri diqqətdə saxlanılır, hər il üçün nəşr planı tərtib olunur. Bu sahədə görülən işlər ötən ildə də davam etdirilib.

Məlumdur ki, 2018-ci il üçün Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı olması ilə əlaqədar ötən il bir çox tədbirlər həyata keçirilib. "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan – 2018" loqotipi və suvenirlər hazırlanıb, üzərində loqotip əks olunmuş döş nişanları, zərflər, poçt markaları buraxılıb. Eyni zamanda albomkataloqlar, jurnallar, İslam dini və onun dəyərləri ilə bağlı kitablar nəşr olunub.

Belə nəşrlərdən biri də "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" kitabıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu tərəfindən hazırlanmış kitabın ilk səhifələrində Azərbaycan Respublikası Prezidentinin Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan – 2018" loqotipinin hazırlanması haqqında sərəncamları yer alıb.

Təqdim olunan nəşrdə görkəmli şəxslərin Naxçıvanın İslam mədəniyyəti ilə zənginliyi, bu mədəniyyəti layiqincə qoruyub yaşatması ilə bağlı dəyərli fikirləri verilib.

Yeni nəşrdə "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018"in açılış və bağlanış tədbirləri, bununla bağlı yaradılmış Təşkilat Komitəsinin iclasları və konfranslar haqqında məlumat verilir. Həmçinin burada keçirilən tədbirlərə aid fotoşəkillər yerləşdirilib.

Kitabda diqqətçəkən nüanslardan biri də "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018"in açılış tədbirində iştirak etmək üçün muxtar respublikaya gələn qonaqların – İslam, Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoru Əbdüləziz Osman əl-Tuveycri, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının Baş katibi Dusen Kasseinov, Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev, Əlcəzairin mədəniyyət naziri Azzedine Mihoubi, Sudan Respublikasının Azərbaycan Respublikasındakı səfiri Abbas Mustafa Ahmet Abdullanın qədim diyarımızla bağlı dəyərli fikirləri və təəssüratlarıdır. Kitabda il ərzində bununla əlaqədar keçirilən tədbirlər, konfranslar, sərgilər, konsert proqramları barədə də ətraflı məlumat verilir. Kitabın son səhifələrində Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə bağlı nəşr olunan kitabların, həmçinin bununla əlaqədar hazırlanan zərfin, poçt markalarının, döş nişanı və gümüş medalların fotoşəkilləri də əks olunub.

Yeni nəşrin sonunda isə "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018"in bağlanış tədbiri işıqlandırılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov, İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktorunun müavini Amina Əl-Həcri, Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev və TÜRKSOY-un Baş katibinin müavini Fırat Purtaşın iştirak etdiyi, milli musiqi və rəqslərimizin təqdim olunduğu tədbir geniş təfsilatla oxuculara çatdırılır.

**Xəbərlər şöbəsi**

---

## Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyinə 75 eksponat təqdim olunub



*Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyinə Muğanlı kənd tam orta məktəbinin müəllim və şagirdləri tərəfindən qədim tariximiz və mədəniyyətimizi əks etdirən küpə, mis məişət əşyaları, daş əmək alətləri, xurcun, saxsı çıraq və digər nümunələrdən ibarət 75 eksponat təqdim edilib.*

Bu münasibətlə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova tariximizin və mədəniyyətimizin saxlanc yeri olan muzeylərə son illərdə göstərilən dövlət qayğısından danışıb. Qeyd edilib ki, bu mədəniyyət müəssisələrində 140 mindən çox maddi mədəniyyət nümunəsi mühafizə olunaraq saxlanılır. Son illər ərzində yeni muzeylərin yaradılması da artıq ənənə halını alıb. Ötən il ərzində Naxçıvan Duz Muzeyi istifadəyə verilib, Qarabağlar Türbə Kompleksi bərpadan sonra öz qapılarını ziyarətçilərinin üzünə açıb. 2018-ci ildə Bəhruz Kəngərli Muzeyinin, Naxçıvan Duz Muzeyi və Qarabağlar Türbə Kompleksinin internet saytları fəaliyyətə başlayıb.

Nazir bildirib ki, son illər ərzində muzeyləri ziyarət edənlərin də sayı əhəmiyyətli dərəcədə artıb. Belə ki, ötən il muxtar respublikamızın muzeylərini 592 min 683 tamaşaçı ziyarət edib. Onlardan 178 min 469 nəfəri əcnəbi vətəndaşdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamına əsasən bu gün muxtar respublikamızın muzeyləri ilə orta məktəblər arasında distant dərslər təşkil olunur. 2018-ci ildə muzeylərdə 371 açıq, 12 distant dərs keçilib.

Diqqətə çatdırılıb ki, keçirilən digər tədbirlərlə yanaşı, muzey fondlarının zənginləşdirilməsi, onların yeni eksponatlarla təmin olunması da daim diqqət mərkəzində saxlanılır. Bu prosesdə muzeylərin əməkdaşları və muxtar respublika sakinləri yaxından iştirak edirlər. Ötən il muzeylərə 1564 ədəd yeni eksponat daxil olub. 2018-ci ildə, ümumilikdə, 8 eksponat təqdimatı keçirilib.

Vurğulanıb ki, artıq təqdimat mərasimlərinə yetişməkdə olan gənc nəslin – məktəblilərin qoşulması da təqdirəlayiqdir. Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyində keçirilən növbəti eksponat təqdimatı da bunun sübutudur. Şərur rayon Muğanlı kənd tam orta məktəbinin müəllim və şagirdləri tərəfindən muzeyə təqdim olunan 75 eksponat muzeyin fondunda və ekspozisiyasında yer alacaqdır.

Natəvan Qədimova çıxışının sonunda mədəniyyətimizə, tariximizə göstərdiyi böyük diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə bu sahədə çalışan insanlar adından dərin minnətdarlığını bildirib.

Şərur rayon Muğanlı kənd tam orta məktəbinin direktoru Salman İmanov çıxış edərək bildirib ki, bu eksponatların şagirdlər tərəfindən muzeyə hədiyyə edilməsi yeni ənənənin başlanğıcını qoyacaqdır. Bu həm də gənc nəslin tariximizə və mədəniyyətimizə ehtiramının ifadəsi kimi qəbul edilməlidir.

Həmin məktəbin XI sinif şagirdi Nərmin Babayeva çıxışında bu ənənənin gələcəkdə də davam etdiriləcəyindən danışaraq qeyd edib ki, mədəni sərvətlərin qorunması və yaşadılması hər bir gəncin vətəndaşlıq borcudur.

Sonda muzeyin ekspozisiyasına baxış olub.

**Əli RZAYEV**

---

*Təhsilin keyfiyyətinin yüksəldilməsinin diqqətdə saxlanıldığı muxtar respublikada istedadlı şagirdlərlə aparılan iş sahəsində də mühüm tədbirlər həyata keçirilir.*

## Fənn olimpiadasının şəhər və rayon mərhələsi keçirilib



Şagirdlərdə özünənam hissini formalaşdırmaq, onların ayrı-ayrı fənlər üzrə bilik və bacarıqlarını aşkara çıxarmaq, ali və orta ixtisas məktəblərinə qəbulunun daha yüksək səviyyədə olmasını təmin etmək, təhsildə sağlam rəqabət yaratmaq məqsədilə istedadlı şagirdlər arasında təşkil olunan fənn olimpiadaları da belə tədbirlərdəndir.

Dünən IX-XI sinif şagirdləri arasında məktəblilərin muxtar respublika fənn olimpiadasının I şəhər və rayon mərhələsi keçirilib. 545 şagirdin iştirak etdiyi bilik yarışında şagirdlər 8 fənn üzrə öz bilik və bacarıqlarını nümayiş etdiriblər.

Azərbaycan dili və ədəbiyyat, riyaziyyat, fizika, kimya, biologiya, informatika, tarix, və coğrafiya fənləri üzrə keçirilən həmin olimpiadada ümumtəhsil məktəblərinin IX, X və XI sinif şagirdləri biliklərini sınayıb. Şagirdlərə hər fənn üzrə fənn kurikulumuna uyğun olaraq qapalı test formasında hazırlanmış 20-30 sual təqdim olunub. Həmin test tapşırıqlarını cavablandırmaq üçün şagirdlərə üç saat vaxt verilib.

Şəhər və rayon mərhələsinin nəticələri olimpiadaların keçirildiyi vaxtdan 10 gün müddətində muxtar respublika təşkilat komitəsi tərəfindən elan ediləcəkdir. Nəticəyə əsasən hər fənn üzrə hər sinifdən ən yüksək nəticə toplayan 3 şagird muxtar respublika mərhələsinin yekun turuna vəsiqə qazanacaqdır.

2 mərhələdən ibarət olan fənn olimpiadasının muxtar respublika mərhələsi 12 fevral 2019-cu il tarixdə keçiriləcəkdir.

Onu da qeyd edək ki, olimpiadaların muxtar respublika mərhələsinin qalibləri təşkilat komitəsi tərəfindən diplom və qiymətli hədiyyələr ilə təltif olunacaqlar.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Seminar-müşavirə olub



***Naxçıvan Şəhər Təsərrüfat-hesablı Nəqliyyat İdarəsində əhaliyə avtomobil nəqliyyatı ilə sərnişindaşıma xidməti göstərən sürücülərə lisenziyaların verilməsi davam etdirilir. Bununla bağlı keçirilən seminar-müşavirəni giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin şöbə müdiri Elxan Novruzov Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 22 oktyabr tarixli Fərmanının əhəmiyyətindən danışıb.***

Tədbirdə çıxış edən xidmətin sektor müdiri Zaur Əliyev bildirib ki, muxtar respublikamızda əldə olunan dinamik inkişaf digər sahələr kimi, nəqliyyat sahəsinə də öz müsbət təsirini göstərib.

Qeyd olunub ki, avtomobil nəqliyyatı ilə sərnişindaşıma xidməti istehlakçılarının qanuni maraqlarının qorunması, bu sahədə qanun pozuntusunun qarşısının alınması, daşımaların təhlükəsizliyi, ətraf mühitin və əməyin mühafizəsinin təmin olunması məqsədilə avtomobil nəqliyyatı ilə sərnişindaşıma xidməti göstərən sürücülərə lisenziyanın verilməsi vacib məsələdir. Ötən il noyabr ayının 1-dən etibarən lisenziyalaşdırılma işlərinə başlanılıb. Bununla əlaqədar ötən müddət ərzində maarifləndirici söhbətlər aparılıb, bu günədək, ümumilikdə, 158 sahibkara lisenziya verilib.

Diqqətə çatdırılıb ki, lisenziyanın qüvvədəolma müddəti bir ildir. Sürücülər avtomobilini texniki baxışdan keçirdikdən sonra Dövlət Nəqliyyat Xidmətinə müraciət edərək lisenziya ala bilərlər. Verilmiş lisenziya əsasında sürücü lisenziya kartı ilə təmin olunur.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi Dövlət Yol Polisi İdarəsinin əməkdaşı Ayaz İsmayılov çıxışında sürücülərin nizam-intizamı gözləmələrinin, eləcə də yol hərəkəti qaydalarına əməl etmələrinin vacibliyini vurğulayıb.

Sürücülər adından çıxış edən İsmayıl Əliyev yaradılan şəraitə görə dövlətimizə minnətdarlıq edib, imkanlardan səmərəli istifadə edəcəklərini diqqətə çatdırıb.

Sonra sürücüləri maraqlandıran suallar cavablandırılıb.

✍ **Nail ƏSGƏROV**

## Şahmat üzrə rayon birincilikləri keçirilir



Şərur Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və muxtar respublika Şahmat Federasiyasının rayon bölməsinin birgə təşkilatçılığı ilə şahmat məktəbində yeniyetmələr arasında rayon birinciliyi keçirilib. Birincilikdə 23 məktəbdən 46 şagird iştirak edib.

Yekun nəticəyə əsasən 10 yaş qrupunda Düdəngə kənd tam orta məktəbinin şagirdi Turab Əsgərov qalib olub. Vərməziyar kənd tam orta məktəbinin şagirdi Sinan Rzayev və Siyaqut kənd tam orta məktəbinin şagirdi Kənan Əliyev ikinci və üçüncülüklə kifayətləniblər. 8 yaş qrupunda isə Şərur şəhər 2 nömrəli tam orta məktəbin şagirdi Kənan Babayev hamıdan güclü olub.

Şahbuz rayonunda isə 10-12 yaşlı məktəblilər arasında keçirilən şahmat üzrə rayon birinciliyinə yekun vurulub. Yarışda 32 zəka sahibi mübarizə aparıb. 5 turdan ibarət olan yarışda qalib adını Ayxan Məmmədli qazanıb. Əli İbrahimov ikinci, Zamin Məhərrəmov üçüncü olublar.

Hər iki yarışda qaliblər təşkilatçılar tərəfindən kubok və diplomlarla mükafatlandırılıblar.

Culfa Rayon Uşaq-Gənclər Şahmat Məktəbində ümumtəhsil məktəblərində şahmatın inkişaf etdirilməsi məqsədilə uşaq və yeniyetmələr arasında tempo növü üzrə rayon birinciliyinə start verilib. Olimpiya sistemi ilə keçirilən yarış 7 turdan ibarət olacaq və iki gün davam edəcək.

Birincilikdə 54 oğlan və qız şahmatçı iştirak edir.

## Basketbol yarışları başa çatıb



***Naxçıvan şəhərindəki 3 nömrəli tam orta məktəbin idman zalında "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında Naxçıvan şəhər tam orta məktəblərinin oğlan komandaları arasında basketbol birinciliyi keçirilib.***

Naxçıvan Şəhər Təhsil Şöbəsi, Gənclər və İdman İdarəsi və Uşaq-Gənclər İdman Məktəbinin birgə təşkilatçılığı ilə keçirilən birincilikdə 17 komanda mübarizə aparıb.

Beynəlxalq Basketbol Federasiyasının mövcud qaydalarına uyğun olimpiya sistemi üzrə keçirilən yarışın yekununa əsasən 10 nömrəli tam orta məktəbin komandası bütün rəqiblərini üstələyərək qalib adını qazanıb. 17 nömrəli tam orta məktəbin komandası ikinci, 1 və 3 nömrəli tam orta məktəblərin komandaları isə üçüncü olublar.

Qaliblərə təşkilatçıların diplom və hədiyyələri təqdim edilib.

✍ **Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi
### *2019/2020-ci tədris ili üçün Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasına əyani təhsil üzrə kursantların qəbuluna dair elan*

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi xüsusi təyinatlı təhsil müəssisəsi olan Polis Akademiyasında əyani təhsil üzrə 150 kursantın qəbulu üçün müsabiqə elan edir.

Müsabiqədə Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 santimetr (qızlar üçün 160 santimetr), çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan (qızlar istisna olmaqla), buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək (2019-cu il avqust ayının 1-dək 16 yaşı tamam olacaq və çağırışçı olmayan) Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, 2019-cu ilin yanvar, aprel və iyul tarixli çağırışlarında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən vətəndaşlar müsabiqəyə buraxılmırlar.

Sənədlərin qəbulu 2019-cu il yanvar ayının 25-dən fevral ayının 25-dək hər gün (bazar və bayram günləri istisna olmaqla) saat $10^{00}$-dan $17^{00}$-dək Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Kadrlar şöbəsində həyata keçiriləcəkdir. Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

*- şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və surəti);*

*- təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında Daxili İşlər Nazirliyinə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat);*

*- yaşayış yeri üzrə tibb müəssisəsindən Daxili İşlər Nazirliyinə təqdim olunması üçün sağlamlıq haqqında arayış;*

*- ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti);*

*- oxuduğu təhsil müəssisəsi tərəfindən Daxili İşlər Nazirliyinə təqdim olunması üçün verilmiş xasiyyətnamə;*

*- 9x12 santimetr ölçüdə 2 ədəd, 4x6 santimetr ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).*

Sənəd qəbulu ilə bağlı əlavə məlumat almaq üçün əlaqə telefonları: *036-545-08-10 (156,160,134)*.

İlkin sənədləri Polis Akademiyasında təhsilə, eyni zamanda daxili işlər orqanlarında xidmətə uyğun gələn namizədlərə müvafiq forma üzrə ərizə-öhdəlik yazmaq təklif olunur və onlar abituriyent hesab olunur.

Abituriyentlər Daxili İşlər Nazirliyinin xüsusi həkim komissiyasında müayinədən, habelə fiziki hazırlıq imtahanı və seçmə komissiyalarında nazirlik tərəfindən müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər (fiziki hazırlıq üzrə minimal normativlər oğlanlar üçün: turnikdədartınma-6 dəfə; qaçış 100 metr məsafəyə-15 saniyə və 1000 metr məsafəyə-4 dəqiqə; qolların üzərindən bədənin döşəmədən qaldırılması-18 dəfə; arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması-18 dəfə; qızlar üçün: arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması-18 dəfə; qaçış 100 metr məsafəyə-19 saniyə və 1000 metr məsafəyə-5 dəqiqə 30 saniyə).

Fiziki hazırlıq normativlərindən birini ödəyə bilməyən, nazirliyin seçmə və ya tibb komissiyalarından keçə bilməyən abituriyentlər müsabiqədən kənarlaşdırılır. Komissiyaların işi ilə bağlı şikayətlərə nəticələr elan olunduğu vaxt abituriyentin komissiya sədrinə müraciəti olduqda baxılır.

Seçmə komissiyalarının vaxtı barədə məlumatlar Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin *www.din.nmr.az* internet saytında yerləşdiriləcəkdir.

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən abituriyentlərin siyahısı Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir. İmtahanlar test üsulu ilə birinci mərhələdə buraxılış imtahanı fənləri üzrə, ikinci mərhələdə isə III ixtisas qrupunun fənləri üzrə Azərbaycan və rus dillərində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşdirmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilir və abituriyentlər bu məqsədlə həmin mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

Daxili İşlər Nazirliyinin Polis Akademiyasına qəbul olunmuş kursantlar 12 avqust-14 sentyabr 2019-cu il tarixdə akademiyada ilkin hazırlıq kursuna cəlb edilir, dərslər 16 sentyabrda başlamaqla tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 5 ildir.

Təhsil müddəti kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur, oğlanlar və qızlar istisna olmadan akademiyanın ərazisində yerləşən yataqxanada yaşayırlar.

Məzunlar Hüquqşünaslıq ixtisası, polis leytenantı xüsusi və ehtiyatda olan leytenant hərbi rütbələri verilməklə daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

***Ətraflı məlumatlar Daxili İşlər Nazirliyinin Polis Akademiyasının www.pa.edu.az internet saytında yerləşdirilmişdir.***

## Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinə
### *2019/2020-ci tədris ili üçün kursant qəbuluna dair elan*

*Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi Orta İxtisas Polis Məktəbinə əyani təhsil üzrə kursant qəbulu üçün müsabiqə elan edir.*

Müsabiqədə "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"nin və "Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinin Nizamnaməsi"nin tələblərinə uyğun olaraq Azərbaycan dilini sərbəst bilən, tam orta təhsilli, boyu azı 170 santimetr, yaşı 30-dan çox olmayan və müddətli həqiqi hərbi xidmət keçmiş Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən şəxslər müsabiqəyə buraxılmırlar.

Sənədlərin qəbulu 2019-cu il yanvar ayının 25-dən fevral ayının 25-dək hər gün (bazar və bayram günləri istisna olmaqla) saat $10^{00}$-dan $17^{00}$-dək Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Kadrlar şöbəsində həyata keçiriləcəkdir. Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

*- şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və notarial qaydada təsdiq olunmuş surəti);*

*- attestat (əsli və notarial qaydada təsdiq olunmuş surəti);*

*- yaşayış yeri üzrə tibb müəssisəsindən Daxili İşlər Nazirliyinə təqdim olunması üçün sağlamlıq haqqında arayış;*

*- hərbi bilet (əsli və notarial qaydada təsdiq olunmuş surəti);*

*- əmək kitabçası (olanlar üçün);*

*- arayış (ailə tərkibi və yaşayış yeri haqqında, işləyənlər üçün isə əlavə olaraq iş yerlərindən);*

*- xasiyyətnamə (yaşayış və ya iş yerindən);*

*- nikah haqqında şəhadətnamə (əsli və notarial qaydada təsdiq olunmuş surəti);*

*- 9x12 santimetr ölçüdə 2 ədəd, 4x6 santimetr ölçüdə 4 ədəd fotoşəkil.*

İlkin sənədləri Orta İxtisas Polis Məktəbinə təhsilə uyğun gələn namizədlərə müvafiq formada ərizə-öhdəlik yazmaq təklif olunur və onlar abituriyent hesab olunurlar.

Namizədlər Daxili İşlər Nazirliyinin xüsusi həkim komissiyasında müayinədən, habelə fiziki hazırlıq və seçmə komissiyalarında müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər (fiziki hazırlıq üzrə minimal normativlər: turnikdədartınma-6 dəfə; qaçış 100 metr məsafəyə-15 saniyə və 1000 metr məsafəyə-4 dəqiqə; qolların üzərindən bədənin döşəmədən qaldırılması-18 dəfə; arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması-18 dəfə).

Fiziki hazırlıq normativlərindən birini ödəyə bilməyən, nazirliyin seçmə və ya tibb komissiyalarından keçə bilməyən namizədlər müsabiqədən kənarlaşdırılır. Komissiyaların işi ilə bağlı şikayətlərə nəticələr elan olunduğu vaxt namizədin komissiya sədrinə müraciəti olduqda baxılır.

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı ixtisas seçimində iştirak etmək üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir. İmtahanlar Azərbaycan dilində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilir və namizədlər bu məqsədlə həmin mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləyə bilərlər.

Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbində tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 2 ildir.

Təhsil müddəti ərzində kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur.

Məzunlara Hüquq-mühafizə fəaliyyəti ixtisası və polis kiçik leytenantı xüsusi rütbəsi verilir.

Seçmə komissiyalarının vaxtı və qəbulla bağlı digər məsələlər barədə məlumatlarla Daxili İşlər Nazirliyinin *www.din.nmr.az* internet saytında tanış olmaq mümkündür.

***Sənəd qəbulu ilə bağlı əlavə məlumat almaq üçün əlaqə telefonları: 036-545-08-10 (156,160,134)***


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 69